Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Vətən mənə oğul desə nə dərdim

**Vətənpərvərlik mövzusunda mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2020**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**“Vətən mənə oğul desə nə dərdim”** –vətənpərvərlik mövzusunda mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. – 26 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Ön söz

Şəhidlər unudulmur. Biz bu dərdi, bu qəmi daim qəlbimizdə saxlayacağıq. Ancaq eyni zamanda bu şəhidlərin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnək olub. Bundan sonra da örnək olacaqdır. Mən tam əminəm ki, Azərbaycanın bugünkü nəsli də, gələcək nəsilləri də bu şəhidlərin qəhrəmanlığından nümunə götürəcəklər. Azərbaycan xalqının milli azadlığını qorumaq üçün daim mübarizədə olacaqlar. Daim qəhrəmanlıq nümunələri, vətənpərvərlik nümunələri göstərəcəklər.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Azərbaycanın müstəqilliyi, torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə minlərlə azərbaycanlı iştirak etmiş və şəhidlik zirvəsinə qalxmışdır. Bəli, vətənpərvərliyin ən ali məqamı - şəhidlikdir. Bu ucalığa yüksələnlərin ömür yolu nə qədər qısa olsa da, şərəfli və örnək sayılır. Qəhrəmanlıq bir anın bəhrəsi deyil. Xarakterin, tərbiyənin, mənəvi yaddaşın gücü ilə diktə olunan keyfiyyətdir. O, elə bir keyfiyyətdir ki, onun mahiyyətində təsadüf adlanan heç nə yoxdur.

Əsl vətəndaş odur ki, öz vətənini öz qəlbi ilə, canı və qanı ilə sevir. Onun azadlıq və istiqlaliyyəti uğrunda hər an canını qurban verməyə hazırdır. Vətən uğrunda canından keçən qəhrəmanlar əbədi bir həyata qovuşur, şərəfli şəhid adı qazanırlar. Bu vətən övladları doğma yurda sədaqət rəmzi, məhəbbət simvoludurlar. Onlar Vətən torpağı uğrunda vuruşmuş, onun bölünməzliyı uğrunda canlarını qurban vermişlər! Eşq olsun belə qəhrəmanlara! Eşq olsun onların amalına! Bax budur əsl vətəndaşlıq borcu, vətəndaşlıq amalı. Biz "Vətən" anlayışını müqəddəsliyini dahi Üzeyirin "Koroğlu" uvertürasını dinləyəndə, Sabiri, Mirzə Cəlili oxuyub dərk etməyə başlayanda duyuruq. Bu müqəddəslik bizim qəlbimizə ana laylası, ana zümzüməsi ilə axıb

gəlir. Vətən təkcə torpaq, yurd-yuva deyil. Vətən bizik, hamımızıq. Onun dünəninə, bu gününə və sabahına da hamımız cavabdehik: əməyimizlə, lazım gəlsə canımızla və qanımızla. Bu müqəddəs məkanda keçmişlə gələcəyimiz qovuşur. O əbədi və əzəlidir. Onun göylərində əcdadlarımızın ruhu dolaşır. Bu gün ölkəmizin qorunmasında, saxlanılmasında, müstəqil dövlət kimi yaşamasında və inkişaf etməsində qəhrəman oğullarımızın böyük rolu olmuşdur. Məhz bu səbəbdən də hər bir azərbaycanlı onları öyrənməli, tanımalı, sevməli, onların xidmətlərini daim xatırlamalı, qiymətləndirməli, tanıtdırmalı, bugünkü və gələcək nəsillərimizə örnək olan ömürlərindən dərs almalı, onlara minnətdar olmalıdır! Bunun əhəmiyyəti bir də ondan ibarətdir ki, müstəqil Azərbaycan Respublikasını qorumaq, onun sərhədlərini sarsılmaz etmək, işğal olunmuş torpaqlarımızı azad etmək üçün Azərbaycanın güclü Milli Ordusu, Silahlı Qüvvələri olmalıdır və Azərbaycan gəncləri orduda xidmət etməyi özlərinin ən ümdə, ən şərəfli borcu hesab etməlidirlər. Torpaqlarımızın azadlığı uğrunda şəhid olanların, qanlı döyüşlərdə misilsiz şücaət göstərənlərin qəhrəmanlığı elə yüksək dərəcəyə çatmışdır ki, bu insanlar ölkəmizin ən ali fəxri adına – Azərbaycan Respublikasının Milli Qəhrəman adına layiq görülmüşlər. Torpaqlarımızın azadlığı yolunda qəhrəmanlıq göstərmiş oğul və qızlarımızın həyat yolunu, döyüş şücaətlərini hər bir Azərbaycan vətəndaşı bilməli, ondan nümunə götürməli, təbliğ etməlidir, çünki onların həyat yolu bizi qələbəyə aparan yoldur. Bu vəsaitin yazılmasında məqsəd qəhrəman övladlarımızı bugünkü və gələcək nəsillərə daha da geniş tanıtmaq, təhsil və mədəniyyət müəssisələrində “Vətənpərvərlik” mövzusunda keçiriləcək tədbirlərə köməklik göstərməkdən ibarətdir.

## Şəhidlər ölməz, Vətən bölünməz!

Dədə Qorqudun gözəl bir kəlamı var: Torpağı qorumasan, əkib-becərməyə dəyməz, əkib-becərməsən, qorumağa dəyməz.

Dünyada hər bir qəhrəmanlığın, fədakarlığın, hər hünərin və zəfərin anası məsləkdir, əqidədir. Məslək və əqidə isə ilk növbədə vətənlə bağlıdır.

Bu gün torpaqlarımızın 20%-i Ermənistanın işğalı altındadır. Yüz minlərlə insanımız qaçqın və məcburi köçkün həyatı yaşayır. Hər bir Azərbaycan gənci torpaqlarımızın azad edilməsi uğrunda Şəhidlik zirvəsinə, Qəhrəmanlıq zirvəsinə hazır olmalıdır. Xalqı yaşatmaq üçün canından keçən igid oğullar heç zaman unudulmurlar. Nəsillər onları yaşadır, sənətkarlar bu ölməz övladların mənəvi abidələrini ucaldırlar. Torpaqlarımızın müdafiəsi üçün canından keçmiş qəhrəmanlarımızı gənc nəslə, məktəblilərə tanıtmaq üçün kitabxanada bir sıra tədbirlər keçirilə bilər. Vətənpərvərlik ən ülvi bir hissdir. Bu gözəl və nəcib əxlaqi keyfiyyəti gələcəyin qurucularına aşılamaq biz kitabxanaçıların borcudur. İnsana məxsus yüksək mənəvi keyfiyyətlər sırasında vətənpərvərlik hissi mühüm yer tutur. Bu müqəddəs hissin lap kiçik yaşlardan aşılanması böyük əhəmiyyət kəsb edir. Bu sahədə məqsədəuyğun nəticə əldə etmək üçün uşaq tərbiyə müəssisələrilə, məktəblərlə yanaşı, kitabxana da, hər şeydən əvvəl, öz işini düzgün planlaşdırmalı, il ərzində görəcəyi işləri qabaqcadan müəyyənləşdirməlidir. Belə ki, uşaqların vətənpərvərlik tərbiyəsinin kitabxanalarda təbliği oxucularla aparılacaq söhbətlər, keçiriləcək tədbirlər öncədən planlaşdırılmalıdır. Bu məqsədlə kitabxanada söhbət, oxucu konfransı, şeir və rəsm müsabiqəsi, ədəbi- bədii gecə və sair keçirmək olar. Bu gün kitabxana hərbi- vətənpərvərlik anlayışını oxuculara necə çatdırmalıdır? Bunun üçün ilk növbədə uşaq və

yeniyetmələrdə müharibə ilə bağlı təsəvvür yaratmaq məqsədilə sərgi təşkil olunmalıdır. Sərgidə kitab, qəzet və jurnal məqalələri ilə yanaşı, hərbi-vətənpərvərlik mövzusuna həsr olunmuş şəkillər və foto- şəkillər də nümayiş oluna bilər. Orada ədəbiyyat siyahısı asmaq və kartoteka qutusu da qoymaq olar. Sərgi aşağıdakı başlıqlar altında təşkil oluna bilər: “Vətənin başını uca edənlər”, “Ölümdən qorxmayan oğullar”, “Qəhrəmanlar unudulmur”, “İgid ölər, adı qalar”, “Vətən oğulları”, “Qaliblərin kədəri”, “Yaddaşlarda yaşayan igidlər”, “Nahaq qan yerdə qalmaz”, “Ulusan, ulu ad daşıyacaqsan”, “Əbədiyyətə qovuşan ömür”, “Nəsillərə yadigar əfsanəvi qəhrəmanlıq”, “Xalqın igid oğulları”, “Vətənin layiqli övladları”, “Şəhidlər ölməz, Vətən bölünməz!”, “Vətən mənə oğul desə nə dərdim”, “Vətənpərvərlik tərbiyəsi ümummilli xilas yolumuzdur”, “Tariximizin şanlı səhifələri”, “Heç kim və heç nə unudulmur”, “Qəhrəmanlıq zirvəsinə ucalanlar”, “Vətən bizi çağırır”, “Vətənpərvərlik - ən ülvi bir hissdir”, “Torpaq uğrunda ölən varsa vətəndir” və s. Sərgidə görkəmli şəxsiyyətlərin vətənpərvərlik haqqında söylədikləri fikirlərdən istifadə etmək sərgini daha da məzmunlu və dolğun edər.


HEYDƏR ƏLİYEV
VƏ AZƏRBAYCANIN
MİLLİ QƏHRƏMANLARI


MUSTAFA ÇƏMƏNLİ
MÜBARİZ


MİRBƏŞİR SEYİDZADƏ
MİLLİ QƏHRƏMANLAR
ZİRVƏSİ


Fazil Güney
QARA QAN
2


İmamverdi
Əbilov
Şəhidlər mehrabı...
Rəhmət duası...


VÜQAR ƏSGƏROV
AZƏRBAYCANIN
MİLLİ
QƏHRƏMANLARI


GÜLXANİ PƏNAH
QARABAĞ
DƏRDİ


Fazil Güney
QARA QAN
1


ƏSİR
QADIN...
Meyxoş
Abdullah

## Görkəmli şəxsiyyətlər Vətən haqqında

Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir.

Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Biz böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsinə çox böyük əhəmiyyət veririk.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Əsil yüksək əxlaqlı, xeyirxah adam yalnız o adam hesab edilə bilər ki, o, özünün bütün hərəkət və davranışlarını əsil vətənpərvərliklə uyğunlaşdırsın.

**M.F.Axundzadə,**
*Azərbaycan dramaturgiyasının banisi*

Vətənin qədrini o kimsə bilər ki, vətən ilə onun ruhən rabitəsi olsun, vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün.

**N.Nərimanov,**
*İctimai-siyasi xadim, yazıçı*

Vətəndaş olmasa boş şeydir Vətən!
Beş günlük, on günlük güney qarıdır.
Vətən məfhumunun özəyindəki
Vətənin vüqarlı oğullarıdır!

**Xəlil Rza Ulutürk,**
*Xalq şairi*

Vətənim verdi mənə namü-nəmək,
Vətəni məncə unutmaq nə deməк.

**Abbas Səhhət,**
*Şair, dramaturq*

Vətən mənə oğul desə nə dərdim,
Mamır olub qayasında bitərdim.

**Məmməd Araz,**
*Xalq şairi*

Öz Vətəninə mənsub olmayan insan, bəşəriyyətə də mənsub deyil.

**Vissarion Qriqoryeviç Belinski,**
*Rus publisisti və ədəbi tənqidçisi*

Vətən uğrunda ölüm qədər dadlı və şərəfli ölüm varmı?

**Kvint Flakk Horatsi,**
*Qədim Roma şairi*

Bir yoxsul qürbətdə şah olsa əgər
Hər axşam o vətən deyib ah çəkər.

**Əssar Təbrizi,**
*Azərbaycanlı alim, şair*

Bastığın yerlərə torpaq deyərək keçmə, tanı:
Düşün altında minlərcə kəfənsiz yatanı.
Sən şəhid oğlusan, incitmə, yazıqdır atanı:
Vermə, dünyaları alsan da, bu cənnət vətəni.

**Mehmet Akif Ərsoy,**
*Türk şairi*

Döyüş meydanında can versə insan
Xoşdur, namərdliklə qoyub qaçmaqdan.

**Sədi Şirazi,**
*Fars şairi*

Orta yaş qrupuna aid oxucular arasında "Müharibə uşaqların gözü ilə" mövzusunda rəsm müsabiqəsi keçirmək əhəmiyyətli olar. Müsabiqə keçirilməzdən əvvəl kitabxanaçı oxucuları mövzu haqqında məlumatlandırmalı, uşaqlara şərait yaratmalıdır ki, onlar öz düşüncələrini çəkdikləri şəkillərdə əks etdirə bilsinlər. Müsabiqənin qalibləri sərgiyə tamaşa edən uşaqlar arasında aparılan sərbəst səsvermənin nəticələri ilə müəyyən olunur. Bunun üçün əl işləri əvvəlcədən nömrələnir, kitabxananın oxu zalında divardan və yaxud rəsm sərgisi üçün nəzərdə tutulan guşədə asılır. Sonra müsabiqə günü təyin olunur və elan kitabxananın girəcəyində divara vurulur. Tədbirdə oxucular bəyəndikləri işlərin nömrəsinə uyğun olaraq 1, 2, 3-cü yerlərin qaliblərinə səs verirlər. Ən çox səs toplayan iştirakçılar– müsabiqənin qalibləri tutduqları yerə görə kitabxana rəhbərliyi tərəfindən hədiyyələrlə mükafatlandırılırlar. Bundan başqa, kitabxanada orta və böyük yaş qrupuna aid oxucular üçün milli qəhrəmanlarımızla, müharibə veteranları ilə görüş təşkil etmək maraqlı olar.

Kitabxanaçılar uşaqlarda Vətənə, onun başı qarlı dağlarına,

bol-bəhrəli düzlərinə, min cür nemət yetirən müqəddəs torpağına, durnagözlü bulaqlarına, ucu-bucağı görünməyən meşələrinə məhəbbət hissi tərbiyə etmək işində bədii əsərlərdən, söhbətlərdən, musiqi əsərlərindən, ekskursiyalardan, foto-albomlardan, rəsm müsabiqələrindən, ucadan oxudan geniş istifadə etməlidir. Bu oxucular vətən haqqında bilgilərini əvvəlcə ailədə, uşaq bağçasında, sonra məktəbdə, daha sonra kitabxanalarda zənginləşdirirlər. Bu məqsədlə hərbi-vətənpərvərlik tərbiyəsinə diqqətlə yanaşmaq lazımdır. Uşaqları xalqımızın adət-ənənələri və sərvətlərilə tanış etmək, vətəni qorumağın hər kəsin müqəddəs borcu olduğunu onlara başa salmaq lazımdır.

Uşaqlar ictimai-siyasi hadisələrə də etinasız yanaşa bilmir. Xoşbəxtlik, qəhrəmanlıq, ədalət və s. haqqında mübahisə etməyə, fikrini bildirməyə, öz sözünü deməyə çalışır. Bu məsələlərin düzgün təhlil edilməsi və başa düşülməsində təşkil olunan disputların böyük əhəmiyyəti vardır. "Kimə qəhrəman deyirik" adlı disputun keçirilməsi daha məqsədəuyğun olar. Disput kitabxanaçının qısa müsahibəsi ilə başlanmalıdır. O, müzakirə ediləcək mövzunu oxuculara bildirməlidir. Daha sonra oxucular çıxış etməlidir. Belə tədbirlərdə oxucular öz bilik dairələrini və təfəkkürlərini daha da zənginləşdirə bilirlər. Tədbirin sonunda maraqlı çıxışla öz obyektiv fikrini bildirən oxucu kitabxanaçı tərəfindən mükafatlandırıla bilər. Məktəbli oxucular yetkinlik astanasında olarkən hər bir addımını fikirləşir, onu əhatə edən mühitin, həyat hadisələrinin təsirinə qapılırlar. Onlar daha çox bədii ədəbiyyat oxuyur, öz ideallarını əsərlərdə axtarırlar. Onların marağını nəzərə alıb kitabxanaçılar uşaqlara Babək, Cavanşir, Koroğlu, Nəbi, Həzi Aslanov, Mehdi Hüseynzadə, Hüseynbala Əliyev, Çingiz Mustafayev, Salatın Əsgərova, Əlif Hacıyev, Fərid Əhmədov, Mübariz İbrahimov,

general-mayor Polad Həşimov və digər qəhrəmanların həyatından, keçdikləri döyüş və mübarizə yollarından, qəhrəmanlar haqqında çoxlu əsərlərin yazılmasından bəhs etməli, hərbi vətənpərvərliyə aid kitabların oxunmasını tövsiyə etməlidir ki, onlar Vətənə sədaqət ruhunda böyüsünlər, Vətən, xalq uğrunda çalışmağı ən ümdə vəzifə hesab etsinlər. Oxucular belə kitabları oxuduqda igidlik, qəhrəmanlıq haqqında geniş məlumatlanacaq, Vətənə daha da sadiq olacaqlar. Milli Qəhrəmanlarımızla bağlı kitabxanalarda respublikanın ümumi təhsil məktəblərinin şagirdləri arasında "Qəhrəmanlıq zirvəsinə ucalanlar" mövzusunda inşa-yazı müsabiqəsi təşkil etmək olar. Bu məqsədlə kitabxananın girəcəyində keçiriləcək müsabiqənin elanı asılır. Orada tədbirin keçirilməsi ilə bağlı bütün şərtlər göstərilir. Müsabiqəyə hazırlıq məqsədilə bir həftə əvvəldən məktəblilər Milli Qəhrəmanlarımızın döyüş yolundan bəhs edən kitabları oxuyub, məlumat toplayırlar. Müsabiqə təyin olunmuş vaxtda keçirilir. Müsabiqənin qalibləri kitabxananın müdriyyəti tərəfindən mükafatlandırılır. Həmçinin Milli Qəhrəmanlarla bağlı azyaşlı uşaqlar üçün təşkil edilən tədbirlərdən biri də səhərcikdir. Səhərciyin uşaqlar üçün əhəmiyyəti böyükdür. Ələmdar Quluzadənin "Azadlıq yolu", "Ölümdən sonrakı ad", "Yaralı əsgər", "Bu dərdi necə yazım", "Oğlum əsgər gedir" və "Hərbi and" şeirləri üzrə səhərciyin və ucadan oxunun hazırlanması daha yaxşı olar. Uşaq kitabxanalarında vətənpərvərliklə bağlı aparılan fərdi söhbətlərin əhəmiyyəti böyükdür. Kiçik və orta yaş oxucular arasında bu mövzuda "dəyirmi masa"lar təşkil etmək, söhbətlər aparmaq əhəmiyyətli olar. Söhbət apararkən oxucuların yaş həddi nəzərə alınmalı çıxışlar zamanı dilin sadə və aydınlığına diqqət yetirilməlidir. Vətənpərvərlik mövzusunda yazıçı və şairlərimizin gözəl əsərlərindən istifadə etmək yaxşı olar. Məsələn, Ə. Cəmilin "Can nənə bir nağıl de..." şeirini, Ə. Məmmədxanlının "Buz

heykəl", T. Hüseynovun "Qolsuz kukla", Ə. Hacızadənin "İki əsgər", S. Nuruqızının "Qisas", Ə. Quluzadənin "Qadan mənə Qarabağ", E.Elatlının "Qisas gecəsi", S. Müslümqızının "Onlar heç vaxt böyüməyəcək", G. İbrahimovanın "Evin kişisi" hekayələrini oxumağı uşaqlara təbliğ etmək məqsədilə kitabların icmalını keçirmək lazımdır. Kitabxanalarda aşağı sinif şagirdlərinin iştirakı ilə nağıl otağında "Cəsurlar", "Şahinlər", "Sərhəd" adlı hərbi-idman oyunlarının keçirilməsini də təşkil etmək mümkündür. Keçirilən oyunlarda oğlanlarla yanaşı qızların da iştirakı təmin edilir ki, bu da işin sevindirici tərəfidir. Hərbi-idman oyunlarının təqaüdə çıxmış zabitlər tərəfindən keçirilməsi bu işdə əhəmiyyətli rol oynaya bilər. Belə mütəxəssislər şagirdlərə hərbi-vətənpərvərlik hisslərini daha keyfiyyətli şəkildə aşılaya bilərlər. Vətənpərvərliklə bağlı uşaq kitabxanalarının "Nağıl otağı"nda mənəvi abidəmiz olan, 1300 ildən də qədim tarixə malik "Kitabi-Dədə Qorqud" dastanının təbliği mövzusunda məktəblilərlə söhbət təşkil etmək olar. Bu dastan balacalarda kökünə sadiqlik, milli adət-ənənələrimizə hörmət kimi hisslər doğurur və onların vətənpərvərlik tərbiyəsində başlıca rol oynayır. Salur Qazan, Beyrək, Qaraca Çoban kimi qəhrəmanların simasında qeyrət, cəsarət simvollarına çevrilmiş oğullardan nümunə götürən uşaq və yeniyetmələrimiz milli köklərimizə bağlılıq ruhunda tərbiyə olunurlar. Kitabxanada keçirilən ənənəvi tədbirlərdən biri kitab müzakirəsinin verilməsidir. Kitabın müzakirəsində təcrübəli kitabxanaçı, orta və yuxarı siniflərdə təhsil alan şagirdlər iştirak edirlər. Kitabxanaçı: Vüqar Əsgərovun "Azərbaycanın Milli Qəhrəmanları" kitabının həcmi kiçik olsa da, siqləti, məna tutumu böyükdür. Burada Azərbaycanın adını ucadan-uca tutan 209 qəhrəmanın adı verilmiş, hər birinin öz döyüş hünəri, rəşadəti, öz tərcümeyi-halı göstərilmişdir. Onların hamısını eyni məqsəd, eyni amal birləşdirmişdi: Azərbaycanın

suverenliyi, dövlətçiliyi və torpaqlarımızın bütövlüyü! Azərbaycanın Milli Qəhrəmanları barədə çox yazılmış, ekrandan, efirdən çox deyilmiş, ayrı-ayrı kitablar buraxılmış, sənədli filmlər çəkilmişdir. Lakin ilk dəfə, onların hamısını "bir dam altında" toplayan bu kitab gərgin zəhmət bahasına başa gəlmişdir. Kitabı Qarabağ müharibəsinin iştirakçısı Vüqar Əsgərov neçə müddət respublikamızın əksər rayonlarına gedərək qəhrəmanların doğmaları, yaxınları, dostları, tanışları ilə görüşmüş və zəngin faktlar toplayaraq yazmışdır. Bu kitab Azərbaycanın Milli Qəhrəmanlarından – 209 insan taleyindən söz açır. Onların həyatı, rəşadəti bizə ana Vətəni, ana torpağı – Azərbaycanımızı necə sevməyi, lazım gəlsə onun yolunda canımızdan keçməyi öyrədir. Kitabxanada vətənpərvərlik kimi ülvi bir hissi oxuculara təbliğ etmək məqsədilə işğal altında olan torpaqlarımızın müdafiəsindən bəhs edən filmlərin nümayişi də çox məqsədəuyğundur. Filmlərin adları ilə sizi tanış edirik: Arxada qalmış gələcək (film, 2004), Atılmamış güllələr (film, 2008), Bir addım (film, 2009), Biz qayıdacağıq (film, 2007), Canavar balası (film, 1997), Dolu (film, 2012), Dönüş (film, 2018), Fəryad (film, 1993), Girov (film, 2005), Haray (film, 1993), Xoca (film, 2012), Xüsusi təyinatlı İbad (film, 2016), Qarabağa gəzinti (film, 2005), Qədirin sorağında (film, 1993), Qırmızı qar (film, 1998), Laçın dəhlizi (film, 1993), Sarı gəlin (film, 1998), Son nəfəsədək (film, 2018), Vandalizm (film, 2016), Vətən mənə oğul desə (film, 1996), Yaddaş (film, 2010) və s. Vətən yolunda qəhrəmanlıq göstərmək ideyası onları həmişə düşündürəcəkdir. Kitabxanada hərbi vətənpərvərliyə aid kitabları oxuculara tövsiyə etmək üçün **"Əziz oxucular! Sizin üçün hərbi vətənpərvərlik kitablar həftəsi"** başlığı altında sərgi və müsabiqə keçirmək olar. Sərgidə nümayiş olunan kitablar oxuculara mütaliə üçün verilməlidir. Həftənin sonunda ən çox mütaliə edən oxucu kitabxana müdiriyyəti tərəfindən **"Əsl vətənpərvər oxucu"**

diplomu ilə mükafatlandırıla bilər.

Kitabxanada uşaqların hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində söhbət ən təsirli vasitələrdəndir. Kitabxanaçı gündəlik iş prosesində bu tədbirdən geniş istifadə etməlidir. Söhbət elə qurulmalıdır ki, oxuculara təsir etsin, onları həyəcanlandırsın. Uşaqlar müharibənin dəhşətlərini gözləri qarşısında canlandıra bilsinlər. Məsələn, Sevinc Nuruqızının "Qisas" povesti Dağlıq Qarabağ müharibəsinin dəhşətlərini gözləriylə görmüş, ermənilər tərəfindən işgəncələrə dözən ana və balanın taleyindən bəhs edir. "Qisas" povestindən söhbət apararkən kitabxanaçı obrazı elə təsvir etməlidir ki, o oxucunun gözləri qarşısında canlansın, qəhrəmanın daxili aləmi ilə yaşasın. Bu söhbət kitaba marağı artıracaq, oxucular arasında təbliği genişlənəcəkdir.

Viktorinaların təşkili orta və böyük yaş qrupuna aid oxucular üçün daha əhəmiyyətli olar. Viktorinanın suallarını təqdim edirik:

1. Azərbaycan Respublikasının Dövlət Bayrağının üzərindəki rənglər nəyin simvoludur? – Mavi- türkçülüyün, qırmızı- müasirlik və demokratiyanın, yaşıl- islamın.
2. Azərbaycan Respublikasının Dövlət Gerbinin üzərindəki simvollar nəyi bildirir? – Qalxan və ulduz sağanaqları Vətənimizin cənnət məskəni olmasını, alov – odlar yurdunu, palıd yarpaqları – uzun- ömürlülüyün və möhkəmliyin, sünbül – bərəkət və bolluğun rəmzidir. Simvollar "müharibə istəmirik, lakin hər cür hücumdan müdafiə olunmağa hazırıq" fikrini ifadə edir.
3. Azərbaycanı 2 hissəyə bölən müqavilə hansıdır? – Türkmənçay.
4. Azərbaycan xalqının ana kitabı – "Kitabi-Dədə Qorqud" dastanı nə vaxt yaranıb? – VII-IX əsrlərdə.
5. Azərbaycan Milli Qəhrəmanlarından kimləri tanıyırsınız? -

Çingiz Mustafayev, Allahverdi Bağırov, Əlif Hacıyev, Vüqar Hüseynov, Məhərrəm Seyidov, Əsəd Əhmədov, Şirin Mirzəyev, Fərid Əhmədov, Mübariz İbrahimov və başqaları.

6. Bu qəhrəmanlar haqqında yazılmış hansı kitablar var? – İ.İbadoğlu “Sərkərdə”, A.Kərimli. “Zəngilan şəhidləri”, S.Müslümqızı “Qar üstünə qan yağırdı”, “Xocalı uşaqları-qan içində qar çiçəyi”, B.Səmədov, S.Aslanov “Təki Vətən yaşasın”, M.Süleymanov “Milli Qəhrəmanlar”, E.Elatlı “Qisas gecəsi”, “Cəhənnəmdən gələn səs”, G.Pənah “Qarabağ dərdi”, M.Çəmənli “Mübariz” və s.
7. Azərbaycan torpağının işğal olunmuş şəhər və rayonları hansılardır? – Xankəndi, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan.
8. Qarabağ müharibəsi nə vaxt başlamışdır? – 1988-ci ilin fevralında.
9. Azərbaycanlılara qarşı ermənilər tərəfindən ən dəhşətli soyqırım faciəsi nə vaxt törədilmişdir? – 1918-ci ilin martında.
10. Qarabağ müharibəsində şəhid olan generalımız kimdir? General-mayor Polad Həşimov
11. Böyük Vətən müharibəsi illərində neçə nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür? – 23 nəfər.
12. “Vətən mənə oğul desə nə dərdim, Mamır olub qayasında bitərdim” misralarının müəllifi kimdir? – Xalq şairi Məmməd Arazın.
13. “Sizi dünyalar qədər sevirəm” bədii filmi kimə həsr olunub? – Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanova.
14. Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə neçənci ildə qayıtmışdır? – 1993-cü il 3 oktyabr.
15. “Əsgər marşı”nın musiqisi kimindir? – Cavanşir Quliyevin.

16. Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseyzadədən bəhs edən filmin adı nədir? – “Uzaq sahillərdə”.

Kitabxanalarda oxucuları vətənpərvərlik ruhunda tərbiyə etmək məqsədilə məktəblilərlə **şeir müsabiqəsi**nin təşkili də məqsədəuyğundur.

**Qarabağı unutma!**

Vətən oğlu, anamız o torpağı unutma,
Qızılgülü saralmış xəzan bağı unutma!
Qarabağ tək gözəlin aqibəti bu imiş...
Qədrini bilməz isən, alçalar qızıl, gümüş.
O nisgilli sinənə çalınçarpaz çəkilmiş,
Sağalmaz yara vuran közü, dağı unutma,
Sən, ey vətən övladı, Qarabağı unutma!
Qanını su tək içdi, sən qan uddur düşmənə,
Övladının qanını su yerinə tökənə.
İç qaniçən qanını, dayanma, dönə-dönə,
Bəsdir dözdün, yetişib qisas çağı, unutma!
Bədəndən ayrı düşmüş əl, ayağı unutma!
Sən, ey vətən övladı, Qarabağı unutma!
Xilas eylə yurdunu düşmənlərin cəngindən,
Gör bir necə Vətənin qızısan, oğlusan sən!
Gir döyüş meydanına, qazan qələbə, əhsən,
Şəlaləsi inləyən dərdli dağı unutma,
Sən, ey vətən övladı, Qarabağı unutma!
Əbəs deyil Pənah xan adı Pənahabadda,
Nadir şahdan dərs alıb o, gəlib çıxdı taxta.
Həmişə abad olub, odur, Pənahabad da.
O özülü, təməli, o dayağı unutma,

Bu qədər yaxın ikən o uzağı unutma,
Sən, ey vətən övladı, Qarabağı unutma!
O əfsanəvi Şuşa bir alınmaz qalaydı,
O, Günəşin nurunu əks etdirən bir Aydı,
Gərək zamanlar boyu o, əlçatmaz qalaydı!
Natəvanlar yetirən o torpağı unutma,
Şah Qacarla vuruşan o bayrağı unutma,
Sən, ey vətən övadı, Qarabağı unutma!
Sən ey vətən övladı, Qarabağı unutma!

**Solmaz Şirin**

**“Salam, Xocalı dərdim”**

“Salam, Xocalı dərdim”
Mən qoynunda doğuldum, sən içimə köçmüsən,
Nağıl dili olmasın, qıl körpüdən keçmisən,
Nəyinə güvənmişəm, nəyimə and içmisən?
Toyuna, bayramına bir vaxt salam verərdim
Salam, Xocalı dərdim!
Qırxqız mehi mizrabın, Qarqar qopuzun idi,
Çölün də, çınqılın da şəkərin, duzun idi,
Qoynuna qısılanda qolların uzun idi.
Sənə ana deyərdim, mənə oğul deyərdin
Salam, Xocalı dərdim!
Əlim ətəyə çatmır, əlim göylərə dəyir,
Ələyənlər ələyib əyilməzləri əyir,
Yetim uşaq görəndə yaralarım göynəyir.
Bu dərd tək mənim olsa ürəyimdə çəkərdim
Salam, Xocalı dərdim!
Qara, qərib daşı var hər əyilən xurcunun,
İstəyi gizli deyil burnumuzun ucunun,
Sağlığını istəyir axı borclu borclunun,

Sənin dərdin olmasa bəlkə çoxdan ölərdim
Salam, Xocalı dərdim!
Məni daştək kündələ, məni qum kimi yoğur,
Bu dünyanın havası məni dördəlli boğur,
Üzümə bahar doğmur, üzümə payız doğur.
Əlim əlinə dəysə ayağını öpərdim
Salam, Xocalı dərdim!
Mən qanımı görmüşəm düşmənin qaşığında,
Eşqim dəli olubdur həsrət yaraşığında,
Tonqal çatacağım mən bu dərdin işığında.
Sevincim inciməsin, mən dərdimə güvəndim
Salam, Xocalı dərdim!
Ürəyin ülkər qızı, idrakın nizəsi var,
And mənə köhnə dostdur, sözümün təzəsi var,
Sevincin sirri bəlli, dərdin möcüzəsi var;
Pencər kimi biçilib, xəncər kimi göyərdim
Sağ ol, Xocalı dərdim! Sağal, Xocalı dərdim!
Salam, Xocalı dərdim!

**Ələmdar Quluzadə**

Kitabxanalarda Vətən uğrunda döyüşən, şəhid olan döyüşçülərimizi, Milli Qəhrəmanlarımızı tanımaq və unutmamaq üçün **"Şəhidlər ölməz, Vətən bölünməz"** adlı anım gününün keçirilməsi vacib tədbirlərdən biridir. Anım günü ilə əlaqədar əvvəlcədən hazırlıq işləri görülməli, Qarabağ müharibəsi, Aprel döyüşləri zamanı, Tovuzda Ermənistan silahlı qüvvələri bölmələrinin hücumunun qarşısını alarkən döyüşdə şəhid olan hərbçilərimiz haqqında fotostendlər, sərgilər, video çarxlar hazırlanır, sənədli filmlər göstərilir. Tədbiri keçirmək üçün ictimaiyyət nümayəndələrini, tarixçiləri, siyasətçiləri, şəhidlərin valideynlərini, döyüş yoldaşlarını dəvət etmək, Milli Qəhrəmanların xatirəsini bir

dəqiqəlik sükutla yad etmək məqsədə uyğun olar. Anım günü aparacının giriş sözü ilə açılır, döyüşçülərin və şəhid olmuş əsgərlərimizin həyat və döyüş yolu barədə qısa məlumat verilir. Sonra çıxışlara yer verilir, dəvət olunan qonaqlar şəhidlərin qəhrəmanlığı barədə xatirələrini danışır, hərbiçilər öz təcrübələri barədə fikirlərini oxucularla bölüşürlər. Aparıcılar səhnəyə çıxır.

**I Aparıcı:** Vətəni sevmək,Vətən naminə yaşamaq, ona xidmət göstərmək üçün hansısa seçilmiş bir sənət, peşə sahibi olmağa lüzum yoxdur. Fəhlə də, həkim də, alim də Vətən üçün yaşaya, öz əməli ilə Vətənin şöhrətini artıra bilər. Kifayətdir ki, ürəkdə təpər, istək, təəssübkeşlik olsun. Əsgər döyüş meydanlarında vuruşur, Vətən qarşısında borcunu səngərdə yerinə yetirir. Fəhlənin, mühəndisin əməyi ilə məmləkətin iqtisadi qüdrəti artır. Alim əməyi isə Vətən üçün Günəş işığı ilə müqayisə edilə bilər.

**II Aparıcı:** Vətəndaşlıq borcu ilk növbədə insanın yaşadığı torpaqla, Vətənlə bağlıdır. Vətən borcu vətəndaşlıq borcudur. Vətən torpağı bizim üçün səcdəgahdır, toxunulmazdır, müqəddəsdir.

**I Aparıcı:** Bəs Vətənin dəyəri nədir? Bu sualın cavabını yalnız onun uğrunda hər an tərəddüd etmədən canından keçməyə hazır olan Vətən övladı deyə bilər. Bu sualın cavabını Vətən sevgisinin ən uca zirvəsinə - şəhidlik zirvəsinə yüksəlməyi bacaran Vətən övladları deyə bilər. O zirvəyə ucalanlar bizə Vətənin dəyərinin nə olduğunu göstərirlər. Onlar bizə Vətənin hər şeydən - canımızdan, şirin yuxumuzdan, isti yatağımızdan, rahat həyatımızdan, övladımızdan, sevdiyimizdən, valdeynimizdən daha dəyərli olduğunu göstərirlər. Əslində onlar bizə öyrədirlər ki, Vətən hər şeydir!

**II Aparıcı:**Vətən sənsən, Vətən mənəm, Vətən bizik! Vətən olmasa, sən də olmazsan, mən də olmaram, biz də olmarıq! Onlar biz var olaq deyə, ölümü gözə alaraq, canlarından

keçirlər. Çünki sənin, mənim, bizim – Vətənin var olmasını istəyirlər! Biz isə Vətən qarşısında borclu olmaqla yanaşı, həm də hər bir şəhid adının qarşısında borcluyuq. Bu borcumuzu isə onların var olması üçün canlarından keçərək bizə əmanət etdiyi Vətəni layiqincə qorumaqla qaytara bilərik.

**I Aparıcı:** Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın gələcəyi olan gənc nəslin vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmış və ona həyatı əhəmiyyətli məsələ kimi baxmışdır. Biz şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Səmədağa Mehmandarov, Əliağa Şıxlinski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə kimi igid və cəsur sərkədələrimizin şəxsi nümunəsi bizə əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Və bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetirmişdir.

**II Aparıcı:** Torpaqlarımızın qorunması yolunda canlarından keçmiş şəhidlərimizin hünəri gənclərimizə örnəkdir. Hər bir Azərbaycan vətəndaşı öz qəhrəmanlarını tanımalı, onların keçdiyi həyat yolundan çox şeyləri öyrənməlidir. Torpaqlarımızın qorunması, vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur.

**I Aparıcı:** Şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq, onları gəncliyə nümunə göstərmək isə hər kəsin vətəndaşlıq borcudur. Hər birimiz Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla mübarizə aparan, xalqımızın azadlığını hər şeydən uca tutan, bu yolda həyatlarını belə qurban verərək ən uca zirvəyə - şəhidlik məqamına ucalanların xatirəsini anmağa həmişə borcluyuq. Çünki torpaqlarımızın bütövlüyü, ərazilərimizin toxunulmazlığı uğrunda canlarından

keçən bu Vətən övladları sonsuz ehtirama, sevgi və məhəbbətə layiqdirlər.

**II Aparıcı:** Şəhidlər xiyabanı respublikamızın bütün məktəbliləri üçün əsl birlik, həmrəylik, mərdlik və cəsarət məbədinə çevrilib. Ulu öndərimizin dediyi kimi, "Biz hərbi vətənpərvərliyi hər şeydən öncə Şəhidlər xiyabanında əbədiyyət yuxusuna getmiş, bugünkü azadlıq və müstəqilliyimizin polad təməlçiləri olmuş, öz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə şanlı səhifələr yazmış igidlərimizdən öyrənməli onlardan ibrət götürməliyik". Şəhidlər tarixin sönməyən çıraqlarıdır. Onlar daim azadlıq uğrunda çırpınan yolumuza işıq saçırlar. Vətən yolunda, milllət yolunda şəhid olanlar ölməzdir.

**II Aparıcı:** ...Müstəqillik əldə etdikdən sonra dilimizdə yaşam hüququ qazanan, 20 Yanvar faciəsindən başlayaraq Xocalıya uzanan, hələ də davam edən Dağlıq Qarabağ müharibəsinin ağrı-acısını ifadə edən şəhid sözü qəhrəmanlıq simvolu kimi də hər kəsdə qürur hissi oyadır.

**I Aparıcı:** Ermənistanın Azərbaycana hərbi təcavüzü zamanı müstəqilliyimiz, ərazi bütövlüyü uğrunda qurban gedənlər hər qarış yurd yeri üçün canlarından keçərək müasir qəhrəmanlıq tariximizin səhifələrini dönməzlikləri, ölümün gözünə dik baxmaq bacarıqları ilə yazdılar. Azərbaycanın hər bölgəsində and yeri kimi müqəddəslik qazanmış Şəhidlər xiyabanlarında əbədi məskən salmaqla gənclərimizə örnək oldular. Şəhidlərimiz ölümləri ilə bir həqiqəti təsdiqlədilər: qəhrəman o insandır ki, özünü həyat uğrunda mübarizələrdə ölümə qalib gəlməklə təsdiqləyir.

**II Aparıcı:** Azərbaycan yenilməz, mübariz xalq olduğunu şəhidlik zirvəsinə ucalan övladlarının şücaəti, oğul itkisinə mətanətlə dözən müqəddəs anaların dəyanəti ilə də

təsdiqləyir. Övladları kiçik ikən ciyərparalarını “boyun qurbanı olum” deyərək sevib, oxşayan, qayğı ilə böyüdən şəhid anaları bütün Azərbaycan xalqının and yerinə çevrilən, ilk addımını atdığı torpaqlarımız uğrunda qurban gedən balaları ilə fəxr edərək “südüm sənə halal olsun” deyir.

**I Aparıcı:** Bəli, bu gün damarında azərbaycanlı qanı axan hər bir kəs Qarabağ və onun taleyi haqqında ciddi düşünməli, əlindən gələni əsirgəməməlidir. Bu bir həqiqətdir ki, dağılmış kəndləri, şəhərləri bərpa etmək, maddi ziyanı ödəmək olar, amma itirilmiş mədəniyyəti, yaralanmış mənəviyyatı qaytarmaq, sağaltmaq mümkün olmur. Allahın köməyi ilə işğal olunmuş torpaqlarımızı yaxın gələcəkdə azad edəcəyik, amma tariximizi, mədəniyyətimizi yaşadan, əks etdirən maddi-mənəvi abidələrimizin taleyini hər an düşünməliyik. Haqq səsimizi dünyaya car çəkərək milli-mənəvi sərvətlərimizə sahib çıxmalıyıq.

**II Aparıcı:** Bu gün əli silah tutan hər kəs vətən uğrunda döyüşməyə hazırdır. Son döyüşlər bir daha göstərdi ki, ordumuzun potensialı böyükdür. Bu uğurlu döyüşlər Silahlı Qüvvələrimizin gələcəkdə qazanacağı qələbələrin yalnız başlanğıc nöqtəsidir.

**I Aparıcı:** Gün gələcək Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Məhz buna görə də vəzifəsindən, ictimai statusundan, siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı bu prosesdə fəal iştirak etməli, bütün qüvvə və bacarığını Azərbaycan xalqının mənafeyi naminə mübarizəyə sərf etməlidir.

**II Aparıcı:** Şəhidlər tarixin sönməyən çıraqlarıdır. Onlar daim azadlıq uğrunda çırpınan yolumuza işıq saçırlar. Vətən yolunda, milllət yolunda şəhid olanlar ölməzdir. Vətən Təbriz kimi, Çingiz kimi, Əlif kimi, Salatın kimi, Mübariz kimi..., Polad kimi... qəhrəmanlarını heç vaxt unutmayacaq.

## Ədəiyyat siyahısı

**Abbas A**. Dolu : romanı. – Bakı : “Təhsil” nəşriyyatı, 2008. - 256 s.

**Cəfərov R.** İkiqat mühasirə. – Bakı : Çıraq, 2008. – 222 s.

**Çəmənli M.** Mübariz : povest – Bakı : Təhsil, 2010. – 96 s.

**Elatlı E.** Cəhənnəmdən gələn səs : roman. – Bakı : MBM, 2009. - 368 s.

**Əhmədov Y.** Torpağa tökülən qan : roman. – B.: Azərnəşr, 2004. – 456 s.

**Xəzər E.** Mübariz : poema. – Bakı : Nərgiz, 2011. – 39 s.

**XınalıZ.** Qarabağı unutma : Hərbi vətənpərvərlik mahnıları və marşları. - Bakı : Təhsil, 2005. - 48 s.

**Kərimli A.** Vətən igid oğullarımızı yaşadacaq. – Bakı : Yeni poliqrafist MMC, 2010.

**Kovlarlı H.** Qaratəpə şəhidləri : mənzum roman. - Bakı : Qanun, 2010. - 671 s.

**Qazi V.** Ruhlar şəhəri. – Bakı : Təhsil, 2010. – 124 s.

**Qızıltaclı T.** Şuşadan məktub. – Bakı : Qanun, 2005. – 51 s.

**Qonaq Ə.** Vətən səndən keçmək olmaz. – Bakı : Hüquq ədəbiyyatı nəşriyyatı, 2010. – 784 s.

**Quluzadə Ə.** Qadan mənə, Qarabağ : şeirlər, poemalar, mənzum pyes. - Bakı : Ozan, 2006. - 456 s.

**Muradxanlı E.** Siz mühasirədəsiniz, leytenant : roman və hekayə . – Bakı : Avrasiya Press, 2009. – 152 s.

**Müslümqızı S.** Xocalı uşaqları - Qan içində qar çiçəyi. - Bakı: Yazıçı, 2013. - 120 s. - Azərbaycan, rus və ingilis dillərində.

**Nuruqızı S.** Qisas : povest. – Bakı : Vektor nəşrlər evi, 2005. – 133.

**Oruc B.** Küskün ruhlar. – Bakı : Təhsil EİM, 2006. – 140 s.

**Özgün S.A.** Tankçı Valeh : yaddaş publisistikası. – Bakı : Yazıçı, 2010. – 176 s.

**Varis.** Bir ovuc torpaq : roman. - Bakı : Vektor, 2009. - 320 s.

**Vəkil Ə.** Əbədi qəhrəmanlıq : poema. – Bakı : Nurlan, 2005. – 88 s.

**Zeynalov E.** Qarabağ hekayələri. - Bakı : Şirvannəşr, 2009.176s.

# Vətən mənə oğul desə nə dərdim

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;
E-mail:info@clb.az
URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 28
Çapa imzalanmışdır: 25.07.2020
Tirajı:100
Pulsuz